2017-ci ilin yanvar-may aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 419860 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çoxdur. Sənaye istehsalının 95,9 faizi malların, 4,1 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 19481,6 min manatlıq, qeyri-dövlət sektorunda 400378,4 min manatlıq məhsul istehsal edilmişdir.

2017-ci ilin yanvar-aprel aylarında muxtar respublikanın sənaye müəssisələrində 15995 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 1,5 faiz artaraq 368,8 manat olmuşdur.